## KÜTLƏ SPEKTROSKOPİYASI-QAZ XROMATOQRAFİYASI METODU VASİTƏSİLƏ DƏNİZ SUYU NÜMUNƏLƏRİNDƏ ÜZVİ MADDƏLƏRİN TƏYİNİ

**Tağızadə Y.G., Hacıyeva H.F., Əliyeva T.İ.**

*Bakı Dövlət Universiteti*
*tarana_chem@mail.ru*

Xəzər dənizinin Novxanı və Pirşağı ərazilərindən götürülmüş dəniz suyu nümunələrində üzvi maddələri təyin etmək üçün iki ölçülü və 2 ölçülü rejimdə işləyən ABŞ-ın LECO firmasının "Peqasus HRT" kütlə spektrometrindən istifadə olunmuşdur. İonlaşma enerjisi-70 eV-dur. RTX-5MS kapillyar silikon kalondan istifadə edilmişdir. Temperatur rejimi 40$^0$C(2 dəq)-20$^0$C (1 dəq)- 300$^0$C(10 dəq) seçilmişdir. Skaner kütləsi-33-600 daltondur. Üzvi birləşmələrin identifikasiyası üçün (NİST və WİLEY) kompyuter kitabxanasından istifadə olunmuşdur.

**Cədvəl 1. Dəniz suyu nümunələrində tapılan üzvi maddələrin miqdarı**

| Üzvi maddə | Tapılan miqdar, nq/l | |
|---|---|---|
| | Novxanı | Pirşağı |
| Tetraxlor 1,1`-bifenil | 0,6 | 0,09 |
| Pentaxlor 1,1`-bifenil | 0,9 | 0,5 |
| Heksaxlor 1,1`-bifenil | 0,58 | 0,2 |
| Metantribrom | 14 | 8 |
| 1-propan, 1,2,3-trixlor | 11 | 5 |
| Benzol, 1-bromofenil | 4 | 2 |
| Benzolamin, 2,4,5-trixlor | 6 | 1,2 |
| Tributilfosfat | 12 | 6 |
| Trifenilfosfat | 5,7 | 3 |
| Tri(2-clorefil)fosfat | 15 | 7,5 |
| Ftalanhidzid | 126 | 93 |
| Dimetilftalat | 80 | 45 |
| Dietilftalat | 1263 | 145 |
| Dibentilftalat | 20 | 1,3 |
| Ftalat | 1519 | 1,2 |
| Di-izobutilftalat | 528 | 112 |
| Formamid | 111 | 35 |
| Formamid-N,N-dimil | 45 | 26 |

Dəniz suyu nümunələrində polixlorlaşmış bifenillər, PAK-lar, fenollar, ftalatlar, piridinlər, xinolinlər və neft karbohidrogenlərinin (alkanlar) miqdarı YVQ-dən çoxdur.



Ekologiya və torpaqşünaslıq elmləri XXI əsrdə. III Respublika Elmi Konfransı

**Dəniz suyu nümunələrində PAK-ların miqdari analizinin nəticələri.** Xəzər dənizinin Novxanı və Pirşağı ərazilərindən götürülmüş su nümunələri maye ekstraksiya metodu ilə analizə hazırlanmışdır. 0,5 l dəniz suyu nümunələri 30 ml dixloretanla ekstraksiya olunur, ekstraktlar birləşdirilir, susuz $Na_2SO_4$ ilə qurudulur. Suyun həcmi 1 ml qalana kimi rotor buxarlandırıcıda qatılaşdırılır. Daxili standart kimi deyterizə olunmuş naftalin və fenantrendən istifadə olunur. Analizin nəticələri cədvəl 2.-də verilmişdir.

**Cədvəl 2. Xəzər dənizinin Novxanı və Pirşağı ərazilərindən götürülmüş su nümunələrində PAK-ların miqdarı**

| PAK (adı) | Tapılan miqdar, nq/l | | YVQ, mq/l |
|---|---|---|---|
| | Novxanı | Pirşağı | |
| Naftalin | 10 | 5,8 | 0,01 |
| Fenantren | 10 | 4,2 | 0,005 |
| flüoranten | 57,7 | 13,8 | 0,001 |
| Piren | 48 | 23 | 0,1 |
| Krizen | 1,5 | 0,8 | 0,0001 |
| Benz(b)flüoranten | 4,2 | 1,6 | 0,000001 |
| Benzo(a)piren | 0,4 | - | 0,000005 |
| Indeno(1,2,3-cd)piren | 3,8 | 1,4 | 0,01 |
| Dibenz(a,h)antrasen | 2,9 | 0,9 | 0,001 |